**Qəri Counz: Azərbaycanı yaşıl enerji sahəsində də parlaq gələcək gözləyir**

Azərbaycan bütün regionun və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

AZƏRTAC xəbər verir ki, bu sözləri BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz 18-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimində deyib.

"Azərbaycanın neft qaz sahəsinin inkişafı tarixinə nəzər salaraq deyə bilərəm ki, Azərbaycanı yaşıl enerji sahəsində də parlaq gələcək gözləyir. Biz 30 ildir Azərbaycanla tərəfdaşlıq edirik və inanıram ki, bu, davamlı olacaq",- deyə o qeyd edib.

**AZƏRTAC**
**2024, 8 iyul**